## Auditor andının içilməsi prosedurları:

1. Auditor andının hazırlanması və həmin andın Palata Şurası tərəfindən təsdiq edilməsi (mətn əlavə olunur);
2. Auditorun and içmə mərasiminin rəhbərliyin yanında struktur bölmələrinin rəhbərlərinin, Üzvlük məsələləri üzrə Komitə rəhbərinin və auditorun iştirakı ilə təşkili;
3. Şifahi and içdikdən sonra auditor onun yazılı mətnini imzalayır və həmin mətn onun şəxsi işində saxlanılır;
4. Auditora ölkə ərazisində auditor fəaliyyəti göstərmək üçün metodik vəsaitlər təqdim edilir.

*Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 22 yanvar 2015-ci il tarixli 260/3 №-li qərarı ilə təsdiq edilmişdir.*

# AUDİTOR ANDI

Mən (soyadı, adı, atasının adı) Azərbaycan Respublikası qanunlarının, beynəlxalq audit standartlarının və digər normativ hüquqi aktların tələblərinə əməl edərək, peşə vəzifələrimi vicdanla, dürüst və qərəzsizcəsinə yerinə yetirəcəyimə təntənəli surətdə and içirəm. Peşəkar fəaliyyətim dövründə auditor xidməti bazarında haqsız rəqabət hallarına yol verməməyə, məxfiliyə əməl etməyə, Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə riayət edəcəyimə və bunu başqalarından da tələb edəcəyimə söz verirəm. Əgər bu andıma xilaf çıxsam, Azərbaycan Respublikasının qanunları ilə tam məsuliyyət daşıyacağımı bəyan edirəm.

Tarix: İmza: